**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA FASİLƏSİZ TƏHSİL SİSTEMİNDƏ ƏLAVƏ TƏHSİLİN YERİ VƏ TƏŞKİLİ MODELLƏRİ (1991-2012-ci illər)

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Nurlan Ramiz oğlu Məmmədov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika elmləri doktoru, professor
**İntiqam Hilal oğlu Cəbrayılov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

pedaqogika elmləri doktoru, professor
**Şəhla Qasım qızı Əliyeva**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Vidadi Paşa oğlu Bəşirov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi: ______________ pedaqogika elmləri doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: ______________ pedaqoji elmləri doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi:** Daim və sürətlə dəyişən çağdaş dünyamız qloballaşma prosesində öyrənməyi sərhədsiz etmişdir. Mədəniyyətlərarası inteqrasiya prosesləri, texnoloji mühitin fasiləsiz və dinamik yenilənməsi, həmçinin vahid informasiya və təhsil məkanının formalaşması əsas insan və vətəndaş hüquq və azadlıqlarından olan təhsili də hamı üçün açıq və əlçatan etmişdir. Ümumi inkişaf prosesinin özü birbaşa təhsillə bağlı olduğu üçün bu ümuminkişaf tendensiya fasiləsiz (ömürboyu) təshsilin əsas komponenti olan əlavə təhsilin və onun istiqamətlərinin də sosial sifarişə uyğun modernləşməsini tələb edir.

Ümumilli Lider Heydər Əliyev "*Təhsil xalqımızın gələcəyidir*" şüarını irəli sürməklə təhsil sahəsinə böyük diqqət ayırmış, eyni zamanda müəllimlərin rolunu yüksək qiymətləndirərək "*Mən bu dünyada müəllim adından ali bir ad tanımıram*" – demişdir. Doğrudan da, təhsil millətimizin gələcəyi olduğu üçün, bu sahədə çalışan pedaqoji kadrların fasiləsiz təhsilinə milli məsələ kimi baxılmalıdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın təhsil sistemində apardığı mütərəqqi islahatlar bu sahəni tənzimləyən hüquqi bazanın təməlidir. Aydındır ki, müəllim 4 illik bakalavriat və 2 illik magistratura təhsili ilə ömür boyu fəaliyyət göstərə bilməz. Müəllimlərin və pedaqoji kadrların əlavə təhsili dövlətin diqqət mərkəzində olmuş və insan kapitalının formalaşdırılmasında böyük rol oynamışdır. İnkişaf etmiş ölkələrin təcrübəsində də olduğu kimi, peşəkarlığı zəif olan müəllim təhsildə yüksək nəticə əldə edə bilməz.

Bu gün elə bir zaman gəlib çatmışdır ki, bütün növ kapital və investisiya qoyuluşlarının fövqündə əsas yeri məhz insan kapitalı tutmalıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz bunları nəzərə alaraq böyük bir uzaqgörənliklə demişdir: "*Azərbaycan çox zəngin ölkədir. Bizim çox zəngin sərvətimiz vardır. Ancaq bizim ən böyük resursumuz insanların biliyidir, savadıdır. Öz imkanlarımızdan səmərəli istifadə edərək, maddi kapitalı insan kapitalına çevirməliyik və bunu edirik*".[1]

---

[1] Məlikli, G. İslahatların əsas məqsədi iqtisadiyyatın dinamik inkişafı və vətəndaş rifahının yüksəldilməsidir // Xalq qəzeti. – 2020, 31 yanvar, – s.4.

Dövlətin təhsil siyasətini uğurla həyata keçirməsi, habelə müvafiq islahatlar proqramına uyğun olaraq rəhbər tutduğu qanunvericilk aktları və onların qəbul olunduğu tarixlər milli təhsil tariximizdə inkişafa doğru əhəmiyyətli dönüş nöqtəsi daşıdığını nəzərə almaqla, dissertasiya tarixi yöndən şərti olaraq iki dövrə bölünmüşdür. Tədqiqat işi tarixi-müqayisəli metodun köməyi ilə təhlil olunub 1991-1999 və 2000-2012-ci illəri əhatə etməklə yanaşı əlavə təhsillə bağlı ən yeni dövrədək olan məsələləri də əhatə etmişdir. Azərbaycanda əlavə təhsilin funksiyalarının, mahiyyətinin, təşkili modellərinin kifayət qədər öyrənilməməsi, diplomdansonrakı təhsilin əhəmiyyəti, fasiləsiz təhsil sistemində ömürboyu təhsilin hamı üçün əlçatan olmasının vacibliyi, əlavə təhsilin tədrisi və təşkili məsələləri ilə bağlı yeni forma və metodların tətbiqinin mümkünlüyü, həmçinin yaşlıların ömür boyu təhsil almalarına olan ehtiyacın tam şəkildə təmin edilməsinin zəruriliyi Azərbaycan dövlətinin təhsil siyasətinin ayrılmaz bir hissəsini təşkil edir.

Azərbaycan Respublikasının təhsil sistemində əlavə təhsilin tarixinə və tədqiqinə dair kompleks yanaşmanı özündə əks etdirən fundamental tədqiqatın mövcud olmaması, əlavə təhsilin mövcud istiqamətlərinə dair ayrı-ayrılıqda tarixi-müqayisəsinin aparılmaması, o cümlədən bu sahədə qəbul olunmuş və özündə mütərəqqi pedaqoji ideyaları ehtiva edən, həmçinin təhsil sahəsindəki qanunvericilikdə nəzərdə tutulan əlavə təhsilin istiqamətlərinin elmi-pedaqoji cəhətdən kifayət qədər əsaslandırılmaması mövzunun aktuallığını daha da artırır.

Fasiləsiz təhsil sistemində əlavə təhsil müxtəlif dövrlərdə fərqli aspektlərdən araşdırma mövzusu olmuşdur. Pedaqoji kadrların ixtisasartırma sisteminin gələcək inkişaf prosesi XX əsrin 20-ci illərinin ortalarından 80-ci illərinə qədər E.P.Belozerçev[2], N.M.Çeqodaev[3], P.V.Xudominskiy[4], S.Q.Verşlovskiy[5] və b.

---

[2] Белозерцев, Е.П. Подготовка учителя в условиях перестройки / Е.П.Белозерцев, – М.: Педагогика, – 1989. – 208 с.

[3] Чегодаев, Н.М. Непрерывное образование в системе повышения квалификации педагогических кадров / Н.М.Чегодаев, – М.; НИИ школ МНО РСФСР, – 1988. – 13 с.

tərəfindən öyrənilmişdir. Fasiləsiz professional təhsilin konseptual əsasları A.P.Vladislavlev, B.S.Qerşunskinin, A.V.Darinskinin əsərlərində geniş şəkildə nəzərdən keçirilmişdir. Yaşlıları təhsilinə dair pedaqoji yanaşmalar xüsusi ilə V.Q.Onuşkinin, İ.Y.Tarxa-novanın, o cümlədən E.L.Torndaykın, M.Ş.Noulzun tədqiqatlarında şərh edilmişdir.

Azərbaycanda pedaqoji kadr hazırlığında innovativ yanaşmaların təkmilləşdirilməsi, eləcə də pedaqoji kadr hazırlığının idarə olunması ilə bağlı məsələləri İ.H.Cəbrayılov[6], əlavə təhsilin tarixini və müasir problemlərini, o cümlədən ixtisasartırma təhsilində yeni mexanizmlərin tətbiqi, forma və üsullarını R.H.Məmmədzadə[7], A.A.Abdullayev[8], M.S.Kazımov[9], A.O.Mehrabov[10] öz əsərlərində ətraflı şərh etmişlər.

Lakin Azərbaycanda əlavə təhsilin bütün istiqamətləri, onların xüsusiyyətləri, funksiyaları və mahiyyəti tam aydınlaşdırılmamış, ölkəmizdə əlavə təhsilin fasiləsiz təhsilin əsas komponenti kimi əhəmiyyəti üzə çıxarılmamış və onun ayrı-ayrı istiqamətləri üzrə təşkili modelləri bütövlükdə, sistem şəklində nəzərdən keçirilməmiş, əlavə təhsilin tarixi və onun təşkili dövlətin qanunvericilk aktları çərçivəsində öyrənilməmişdir.

---

[4] Худоминский, П.В. Развитие системы повышения квалификации педагогиеских кадров советской общеобразовательной школы. (1917-1981 гг.) / П.В.Худоминский, – М.: Педагогика, – 1986. – 184 с.

[5] Вершловский, С.Г. Общее образование взрослых: стимулы и мотивы / НИИ общ. образования взрослых АПН СССР. – М.: Педагогика, – 1987. – 183 с.

[6] Cəbrayılov, İ.H. Pedaqoji kadr hazırlığının bəzi məsələləri / Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. – 2014. №2, – s.9-13.

[7] Məmmədzadə R.H. İxtisasartırma təhsili: Yeni problemlər, yeni münasibətlər / – Bakı: Qrant, – 2001. – 140 s.

[8] Abdullayev A., Təhsil sahəsində islahat Proqramının tələbləri baxımından Azərbaycan Müəllimlər İnstitutunda kadrların ixtisasının artırılması, yenidən hazırlanması və təkmilləşdirilməsi işinin təşkili, – Bakı:Müəllim, – 2004. –289 s.

[9] Kazımov, M.S. Müəllimlərin ixtisasartırma təhsilinə yeni yanaşmalar: metodik vəsait / M.S.Kazımov; elmi red. Y.Ş.Kərimov; red. Ə.M.Əhmədov; rəy. Ü.H.Əhmədov, İ.H.Cəbrayılov; Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Problemləri İnsititutu, – Bakı, – 2013. – 55 s.

[10] Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri / – Bakı: Mütərcim, – 2007. – 448 s.

Qeyd olunanlar onu deməyə əsas verir ki, hazırda əlavə təhsilə bütov bir sistem kimi baxmaq və onu müasir yanaşmalar əsasında modernləşdirmək qarşıda duran təxirəsalınmaz pedaqoji vəzifələrdən biridir.

**Tədqiqatın obyektini** 1991-2012-ci illərdə Azərbaycan Respublikasında fasiləsiz təhsil sistemində əlavə təhsil və onun əsas istiqamətlərinin formalaşması və inkişaf prosesi təşkil edir.

**Tədqiqatın predmeti** 1991-2012-ci illərdə Azərbaycan Respublikasında fasiləsiz təhsil sistemində əlavə təhsilin yeri və təşkili modelləridir.

**Tədqiqatın məqsədi**. 1991-2012-ci illərdə Azərbaycanda əlavə təhsilin (və onun istiqamətlərinin) formalaşma prosesini qanunvericiliyin tələbləri – qanun, fərman, sərəncam, qərar və bu sahədə qəbul edilmiş normativ-hüquqi aktlar əsasında təhlil etmək, inkişaf tendensiyasını müəyyən etmək, həmin dövr ərzində əlavə təhsilin xüsusiyyətlərini, funksiyalarını və mahiyyətini aydınlaşdırmaq, Azərbaycan Respublikasında fasiləsiz təhsilin təkmilləşdirilməsi üçün aparılan dövlət siyasətinin əhəmiyyətini üzə çıxarmaq, əlavə təhsilin təşkili modellərini öyrənmək, əsasən tarxi-müqayisəli metod vasitəsi ilə prosesi elmi-pedaqoji aspektdən şərh etmək, əldə olunmuş təcrübənin ümumiləşdirib müasir forma və metodlarla uyğunluq imkanlarını nəzəri təhlil etmək, əlavə təhsilin müasir təşkili formalarını üzə çıxarmaqdan ibarətdir.

**Tədqiqatın** qarşısına aşağıdakı **vəzifələr** qoyulmuşdur:

1. 1991-ci ilə qədər əlavə təhsilin formalaşma prosesini üzə çıxarmaq;
2. 1991-1993-cü illərdə əlavə təhsil sahəsində durğunluğu, 1993-1999-cu illərdə əlavə təhsil sahəsində islahatları zəruri edən səbəbləri və bunun qanunvericilikdəki əksini müəyyənləşdirmək;
3. 2000-2012-ci illərdə Azərbaycanda müəllim kadrlarının hazırlanmasında əlavə təhsil müəssisələrinin rolunu müəyyənləşdirmək;
4. 1991-2012-ci illərdə Azərbaycanda əlavə təhsil xidmətlərini həyata keçirən təhsil müəssisələrinin fəaliyyətini müqayisə əsasında qiymətləndirmək və həmin illərdə əlavə təhsilin təşkili modellərini tədqiq etmək.

5. Müasir dövrdə Azərbaycan Respublikasında əlavə təhsil xidmətləri göstərən təhsil müəssisələrinin əldə etmiş olduğu mütərəqqi təcrübələrini üzə çıxarmaq;

6. Azərbaycan Respublikasında insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, yaşlıların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasında əlavə təhsilin rolunu aşkara çıxarmaq.

Qarşıya qoyulan vəzifələri həyata keçirmək üçün aşağıda göstərilən **tədqiqat metodlarından** istifadə edilmişdir: tarixi-müqayisəli, nəzəri təhlil, müşahidə,ümumiləşdirmə, induksiya və deduksiya, analiz və sintez.

**Tədqiqatın elmi yeniliyi.** 1991-2012-ci illərdə əlavə təhsil sahəsində islahatları zəruri edən səbəblərin müəyyən edilməsi, göstərilən illərdə Azərbaycanda əlavə təhsil sahəsində qəbul edilmiş qanunvericilik aktlarının tədqiqata cəlb edilməsi, həmin illərdə Azərbaycanda müəllim kadrlarının hazırlığında əlavə təhsil müəssisələrinin yerinin və rolunun müəyyənləşdirilməsi, müasir dövrdə keyfiyyətli pedaqoji kadr hazırlığında əlavə təhsil xidmətləri göstərən təhsil müəssisələrinin statusu və potensialı (professor-müəllim heyəti, elmi-medtodik təminat və maddi-texniki baza), təcrübəsi, əlavə təhsilin təşkili modelləri ilk dəfə kompleks şəklində öyrənilmişdir. Eyni zamanda, əlavə təhsilin təşəkkül prosesi, inkişaf tendensiyası ümumiləşdirilir, sistemləşdirilir və Azərbaycan Respublikasının təhsil sistemindəki perspektivi müəyyənləşdirilmişdir ki, bütün bunlar tədqiqatın elmi yeniliyini təşkil edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. 1991-2012-ci illərdə Azərbaycanda əlavə təhsil sahəsində qəbul edilən qanunvericilik aktlarının təhlili, Azərbaycan Respublikası vətəndaşlarının əlavə təhsil ehtiyaclarını ödəyən, əlavə təhsil xidmətləri göstərən təhsil müəssisələrinin fəaliyyəti dərindən araşdırılaraq şərh edilmişdir ki, bu da gələcəkdə əlavə təhsilin elmi-pedaqoji və iqtisadi səmərəliliyi ilə bağlı yeni tədqiqat işlərinin aparılması zamanı mənbə rolunu oynayacaqdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** "Azərbaycanda fasiləsiz təhsil sistemində əlavə təhsilin yeri və təşkili modelləri (1991-2012-

ci illər)" mövzusunun tədqiqata cəlb edilməsi Azərbaycanda əlavə təhsilin zəngin və şərəfli tarixinin və bu sahədə çoxillik elmi-metodik irsin öyrənilməsində, müasir dövrdə əlavə təhsil sisteminin yenidən qurulmasında, əlavə təhsil sistemində tədrisin məzmununun təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyadan əldə olunmuş elmi nəticələr Azərbaycanda pedaqoji kadr siyasəti və pedaqoji kadr islahatlarının aparılmasının sistemlilik baxımdan daha dinamikləşdirilməsinə, pedaqoji kadrların, o cümlədən sosial-pedaqoji kadrların (təhsildə sosial işçilərin, sosial pedaqoqların, tərbiyəçilərin və müəllimlərin) rotasiyasını asanlaşdırılmasına, ali təhsil müəssisələri arasında müəllim mübadiləsini çevikləşməsinə, yüksək ixtisaslı pedaqoji kadrlar əldə etmək üçün xarici universitetlərə tələbatın azaldılmasına, əlavə təhsil xidmətləri göstərən təhsil müəssisələrinə publik hüquqi şəxs statusu verməklə onların maliyyə dayanaqlığının təmin edilməsinə, Azərbaycan Respublikası vətəndaşlığını qəbul edən şəxslərin, o cümlədən repatriantların cəmiyyətə və yerli əmək bazarına adaptasiyasının sürətləndirilməsinə, işğaldan azad olunmuş torpaqlarımızda infrastrukturun, sənayenin yüksək texnologiyaya əsaslanan startapların yaradılmasına və rəqabət mühitli yeni əmək bazarının formalaşdırılmasına böyük töhfə verəcəkdir.

Bununla yanaşı, yaşlıların məşğulluq probleminin çevik həllini əlavə təhsil vasitəsi ilə nəzərdən keçirmək, Azərbaycanda əlavə təhsilin distant təhsil texnologiyaları əsasında təşkilini, əlavə təhsil modellərinin tətbiqinin kadr hazırlığında çevikliyi və səmərəliliyi artırmaq və dünya təhsil sisteminə inteqrasiya çərçivəsində ondan zəruri alət kimi istifadə etmək mümkündür.

Tədqiqat işindən həmçinin əlavə təhsil üzrə yeni elmi araşdırmaların aparılmasında, əlavə təhsilin tarixi, əlavə təhsilin istiqamətləri və əlavə təhsilin təşkili modelləri mövzusunda dərslik və dərs vəsaitlərinin hazırlanmasında, metodik vəsaitlərin, fənn proqramlarının və fənn sillabuslarının, eləcə də biblioqrafiya və antologiyaların tərtib olunmasında istifadə edilə bilər.

**Tədqiqatın mənbələri.** Tədqiqat zamanı ilkin mənbə kimi yerli və xarici pedaqoji ədəbiyyatdan, dövri mətbuatdan, əlavə təhsil haqqında qüvvədən düşmüş və qüvvədə olan qanunvericilik

aktlarından, milli təhsil sistemimizdə bu sahədə tətbiq olunmuş yerli və beynəlxalq səviyyəli elmi-pedaqoji layihə və təcrübələrdən, Azərbaycanda əlavə təhsil xidmətləri göstərən təhsil müəssisələrinin əlavə təhsil proqramları və əlavə təhsilin müvafiq istiqamətləri üzrə kadr hazırlığını həyata keçirən tədris proqramlarından, eyni zamanda pedaqoji müşahidələrdən və pedqoji fəaliyyət dövründə əlavə təhsil sahəsindəki elmi-pedaqoji təcrübədən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan müddəalar**:

1. Əlavə təhsil sosial-pedaqoji fəaliyyət olub bir proses kimi dövrün təsiri altında inkişaf etdiyi üçün onun ömürboyu təhsil kontekstində öyrənilməsi aktualdır;

2. XIX əsrdən etibarən Azərbaycanda pedaqoji kadr hazırlığı, savadsızlığın ləğvi və maarifçiliyin inkişafı sahəsində əlavə təhsilin böyük rolu olmuşdur;

3. Azərbaycanda əlavə təhsil şərəfli tarixi inkişaf yolu keçmişdir və çoxillik zəngin elmi-pedaqoji irsə malik olduğu üçün öyrənilməsi vacibdir;

4. Azərbaycanda əlavə təhsil xidmətləri göstərən ali təhsil müəssisələri və ya onların ixtisaslaşmış struktur vahidləri pedaqoji kadr hazırlığında təhsilin fasiləsizliyni təmin edən qurum olduğu üçün publik hüquqi şəxs kimi fəaliyyət göstərməsi daha məqsədəuyğundur;

5. Azərbaycan Respublikasının təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri əlavə təhsillə bağlı olduğu üçün ("Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 24) bu sahəyə diqqətin daha da artırılması, ali təhsil müəssiələrinin əlavə təhsilin tarixi və onun inkişaf mərhələlərinin təlimin məzmununa daxil edilərək öyrənilməsi, bu məsələlərin Ali məktəb pedaqogikası və Pedaqogika tarixi dərsliklərinə salınması zəruridir;

6. İşğaldan azad olunmuş torpaqlarımızda infrakstrukturun, sənayenin yüksək texnologiyaya əsaslanan startapların yaradılması və rəqabət mühitli yeni əmək bazarının formalaşması fonunda Böyük Qayıdış prosesi çərçivəsində doğma torpaqlarına qayıdan yerli sakinlərin məşğulluğu ilə bağlı sosial-pedaqoji məsələləri əlavə təhsil vasitəsilə çevik həll etmək mümkündür;

7. Azərbaycanda əlavə təhsilin əsas istiqamətləri (ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili) və bu istiqamətlər üzrə əlavə təhsilin digər (qısa və uzunmüddətli kursların, konfransların, simpoziumların, seminarların, forumların, dərnəklərin, treninqlərin, təlimlərin və ustad dərslərinin), o cümlədən distant texnologiyalar əsasında təşkili modellərinin tətbiqi kadr hazırlığında çevikliyin, iqtisadi və pedaqoji səmərəliliyinin təmin olunması dünya təhsil sisteminə inteqrasiya baxımından əhəmiyyətlidir.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu və nəticələri respublika doktorant və dissertantlarının elmi konfranslarında dinlənilmiş, tezis və məqalələr şəklində çap olunmuşdur. Dissertasiya işinin əsas nəzəri müddəaları və praktiki təklifləri elmi mətbuatda və beynəlxalq xülasələndirmə indekslərində yer almış elmi-praktiki konfrans materiallarında öz əksini tapmışdır. Mövzu ilə bağlı müəllifin 9 elmi məqaləsi (3-ü xarici ölkədə nəşr olunmaqla) və 24 tezisi çap olunmuş, beynəlxalq və yerli elmi konfranslarda məruzələrlə çıxış etmişdir. Eyni zamanda müəllif distant təhsil texnologiyalarının imkanlarından istifadə edərək bir sıra nüfuzlu xarici ölkələrin ali təhsil müəssisələrinin pedaqoji məzmunlu treninq və kurslarında iştirak edərək beynəlxalq dərəcəli sertifikatlar əldə etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi girişdən, 3 fəsildən, hər fəsil 3 yarımfəsil olmaqla 9 yarımfəsildən, nəticədən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Digər texniki parametrlər aşağıdakı kimidir.

Giriş – 12 səhifə, 19102 işarə, I Fəsil – 36 səhifə, 73685 işarə, II Fəsil – 40 səhifə, 76713 işarə, III Fəsil – 26 səhifə, 52613 işarə, nəticə – 8 səhifə, 9343 işarə. Dissertasiya işinin ümumi həcmi 143 səhifə, 231456 işarə təşkil edir.

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəaları müəyyənləşdirilmiş, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tətbiqi və aprobasiyası barədə məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **"Fasiləsiz təhsil sistemində əlavə təhsilin inkişaf tarixi"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəslin birinci paraqrafı ***"Ömürboyu təhsil kontekstində əlavə təhsil sosial institutun mühüm tərkib hissəsi kimi"*** adlanır. Burada "əlavə təhsil", "fasiləsiz təhsil", "ömürboyu təhsil", "təhsilin sosiologiyası", "insan kapitalı" kimi əsas anlayışların qarşılıqlı əlaqəsi üzə çıxarılmış, onun təkrar istehsalda və cəmiyyətin sosial strukturunun inkişaf prosesində (sosial qrupların və fərdlərin sosial vəziyyəti ilə onların təhsil səviyyəsi arasında qarşılıqlı münasibətlərin yaranmasında) oynadığı rol üzə çıxarılmış, biliyin, sosial normaların, mənəvi sərvətlərin, pedaqoji dəyərlərin, təhsil sistemində fərdin sosiallaşmasının qarşılıqlı təsirinin öyrənilməsində əlavə təhsilin spesifikliyi ön plana çəkilmişdir.

I fəslin **"*İnkişaf etmiş ölkələrdə sosial-pedaqoji işçilərin formalaşmasında əlavə təhsilin rolu*"** adlanan ikinci yarımfəslində sosial-pedaqoji kadrların (sosial pedaqoqların, təhsildə sosial işçilərin, pedaqoji kadrların, müəllimlərin, tərbiyəçilərin) əlavə təhsili yeni pedaqoji diskursda nəzərdən keçirilmiş – sosial-pedaqoji kadrların əlavə təhsil ehtiyaclarının ödənilməsinə vahid və mərkəzləşdirilmiş proses kimi baxmaq daha məqsədəuyğun hesab edilmişdir.

İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salaraq belə qənaətə gəlinmişdir ki, sosial sahə mütəxəssislərinin hazırlanması birbaşa humanitar və o cümlədən pedaqoji təhsillə sıx bağlı olduğu üçün problemin aktuallığı mütəxəssislərin mədəni varisliyin və şəxsiyyətin mənəvi inkişafının qorunmasındakı rolunun artması ilə şərtlənir. Çünki humanitar təhsilə əksər ölkələrdə mənəvi həyatın əsaslarının bünövrəsi kimi baxılır. Belə ki, o, istənilən istedadın özəyini təşkil edir. Fasiləsiz təhsil konsepsiyasında əlavə təhsili bu komponentlərdən ayrı nəzərdən keçirmək mümkün deyil və hazırkı dövrdə bu, xüsusi əhəmiyyət kəsb

edir. Ona görə də, sosial-pedaqoji kadrların əlavə təhsili dedikdə pedaqoji diskursda tərbiyəçilərin, sosial pedaqoqların, müəllimlərin, təhsildə sosial işçilərin ortaq və müştərək əlavə təhsil problemləri ilə bağlı ehtiyacların ödənilməsi əlavə təhsillə birbaşa bağlılıq təşkil etdiyi üçün, hesab edirik ki, pedaqoji kadrlarla yanaşı, sosial işçilərin və sosial-pedaqoqların da diplomdansonrakı təhsil ehtiyacları əlavə təhsil kontekstində nəzərdən keçirilməlidir.

Qeyd olunan yarımfəsildə göstərilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək mümkündür ki, pedaqoqların (tərbiyəçi, müəllim, psixoloq) və sosial pedaqoqlar ilə təhsildə sosial işçilərin fəaliyyət sahəsi bir-birləri ilə üzvi surətdə sıx bağlılıq təşkil edir. Məhz buna görə də sosial-pedaqoji kadrların əlavə təhsil problemləri ilə bağlı məsələləri həm tarixi, həm də müasir aspektdən yanaşmaqla, birgə nəzərdən keçirərək təhlil edilməsi daha məqsədəmüvafiqdir.

I fəslin ***"Rusiyada pedaqoji kadr hazırlığı çərçivəsində əlavə təhsilin tarixi inkişaf mərhələləri"*** adlanan üçüncü yarımfəslində çar Rusiyası dövründə imperiya ərazisində 1828-ci il nizamnaməsindən bu yana həyata keçirilən islahatlar çərçivəsində pedaqoji kadr və müəllim hazırlığının tarixinə nəzər salınmışdır.

Bu dövrdə pedaqoji kadrların ixtisasının artırılması işinə istər qəzalar, istər quberniyalar, istərsə də ümumrusiya miqyasında keçirilən qurultaylar, konfranslar, müşavirələr və seminarlar xidmət etmişdir ki, bunların da hamısı əlavə təhsilin təşkili modelləri sırasına daxil idi. Qeyd olunan dövrdə əlavə təhsilin məzmunu müxtəlif idi: müəllimlərin bilik səviyyəsinin yüksəldilməsi, şagirdlərin təlim-tərbiyəsinin metod və üsullarının təkmilləşdirilməsi, təhsildə təşkilati və idarəedici məsələlərin öyrədilməsi və s. XIX əsrin ortalarından başlayaraq Rusiyada müəllimlər üçün qurultaylarla yanaşı, kursların təşkili də tətbiq edilməyə başlanmışdır. Məsələn, 1869-cu ildə Moskva Savadlılıq Komitəsinin hesabatından görünür ki, Tula bölgəsinin Novoselki məktəbinin bazasında yay pedaqoji kursları təşkil edilmişdir. Bu barədə İ.Derkaçov "Müəllim" («Учитель») jurnalında da belə əyani tədris kurslarının və onların nəzdində praktiki dərslərin keçirilməsinin əhəmiyyətinə diqqət çəkmişdir. Ümumrusiya müəllimlər və orta məktəb xadimləri ittifaqının I Ümumrusiya qurultayının (9-11 fevral 1906-cı il)

protokollarında məktəbin valideynlərlə birgə işi, valideyn komitələrinin və dərnəklərin rolu yüksək qiymətləndirilmişdir.

Bu paraqrafın məzmununu ümumiləşdirərək qeyd etmək olar ki, XX əsrin 20-ci illərinin əvvəllərinə qədər Rusiyada müəllimlərin və digər pedaqoji işçilərin, o cümlədən təhsil müəssisələrinin direktorları və müfəttişlərinin peşəkarlıq səviyyəsinin artırılmasının əsas təşkilati formaları kimi qurultaylar, kurslar, konfranslar, müşavirələr, təcrübə mübadilələri, dərslərin, ekskursiyaların, pedaqoji sərgilərin, pedaqoji şuraların fəaliyyəti nəzərəçarpacaq dərəcədə artmağa başlamışdır. Lakin həmin dövrdə pedaqoji kadrların ixtisasının artırılması ilə məşğul olan tədris-metodiki müəssisələr hələ yaradılmamışdır. İxtisasartırma məsələlərinin praktiki həlli əsasən 60-cı illərə qədər partiya və Sovet orqanlarının direktiv sənədləri, RSFSR-in, daha sonra isə SSRİ-nin Dövlət Maarif Komissarlığının normativ sənədləri səviyyəsində həyata keçirilmişdir.

Dissertasiyanın **“Azərbaycanda təhsil islahatları çərçivəsində əlavə təhsilin inkişaf tendensiyası”** adlanan ikinci fəslin birinci yarımfəsli ***“1920-1990-cı illərdə Azərbaycanda əlavə təhsil proqramları vasitəsilə müəllim və pedaqoji kadr hazırlığı”*** adlanır. Bu fəsildə Azərbaycanda təhsil islahatları çərçivəsində əlavə təhsilin inkişafı şərti olaraq üç mərhələyə bölünmüşdür. Birinci mərhələ 1920-1990-cı illəri, başqa sözlə, Azərbaycan Respublikasının müstəqillik əldə etdiyi tarixədək olan dövrü əhatə edir.

Paraqrafda göstərilmişdir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə müəyyən əmək təcrübəsi olan əhali üçün əlavə təhsil hesab ediləcək müxtəlif növ kurslar təşkil edilmişdir. Mühüm iqtisadi-siyasi əhəmiyyət daşıyan sahələrdə isə – yəni dəmiryol, bank, rabitə, poçt, teleqraf sahələri üzrə ixtisaslı milli kadrları hazırlayan tədris kursları açılmışdır. Dövrün əlavə təhsil xidmətlərini özündə ehtiva edən bu proses ixtisaslı dövlət qulluqçuları arasında milli kadrların xüsusi çəkisinin artmasına səbəb olmuşdur.

XX əsrin 90-cı illərinədək respublikada əlavə təhsil ilə bağlı aparılan islahatlar, həmin istiqamətdə həyata keçirilən tədbirlər göstərilən dövr ərzində Azərbaycanda pedaqoji kadrların hazırlanma, ixtisasartırma, yenidənhazırlanma, elmi-pedaqoji tədqiqat institutları sırasında aşağıdakı təhsil müəssisələrinin rolunu üzə çıxarmışdır.

1) Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi

2) Qazax Müəllimlər Seminaryası (QMS)

3) Bakı Xalq Maarifi İnstitutu (BXMİ)

4) Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutu (MTİ)

5) Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutu (MMTİ)

6) Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutu (BPKİA YHİ)

7) Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhzırlanma İnstitutu (BPKİYH)

8) Azərbaycan Elmi-Tədqiqat və Pedaqoji Elmlər İnstitutu (AET PEİ).

Yarımfəslin yekunu kimi qeyd olunmalıdır ki, Sovet təhsil sisteminin köməyilə elmin qabaqcıl nailiyyətlərini mənimsəyərək əldə olunmuş təcrübəni varislilik prisnipi çərçivəsində növbəti – gənc nəslə ötürmək, habelə dünya mədəniyyətinə qovuşmaq, müxtəlif sahələrdə qabaqcıl elmi ideyalarla silahlanmış yüksək ixtisaslı milli kadrlar hazırlamaq kimi imkanlar əldə etmişdir. Bununla belə, Sovet hakimiyyəti illərində Azərbaycanda təhsilin inkişafı bütövlükdə Ümumittifaq məkanda qəbul edilmiş təhsil strategiyasının ruhuna və tələblərinə uyğun olaraq, mərkəzləşmiş qaydada həyata keçirilirdi. Müəyyən edilmiş strategiyadan sapmaq, milli xüsusiyyətlərə söykənən yerli təhsil konsepsiyası hazırlamaq və onu inzibati-amirlik idarəetmə metodlarının bərqərar olduğu sistemdə tətbiq etmək mümkünsüz idi. Yalnız 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev rejimin sərt qanunlarına rəğmən Azərbaycanın tərəqqisi, o cümlədən elm, təhsil və mədəniyyətinin yüksəlməsi üçün məharətlə düşünülmüş yüksək dəqiqliyə malik strategiya və taktika seçməklə bu məqsədə nail olmuşdur. Bu illər ərzində Azərbaycanda təhsilin inkişafı geniş vüsət almışdır. Məktəbəqədər təlim-tərbiyə müəssisələrindən tutmuş ali təhsil məktəblərinədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə qədəm qoyaraq, Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin artmasında, milli kimlik və milli özünüdərk prosesində, o cümlədən milli kadr ehtiyatının formalaşdırıımasında çox böyük rol oynamışdır.

Beləlikə, Azərbaycan təhsil tarixində əlavə təhsil özünəməxsus şərəfli yer tutmuş, hərbi-siyasi potensialımızın formalaşmasında, elm

xadimlərimizin və mədəniyyət korifeyiərimizin yetişməsində böyük rol oynayaraq çoxillik elmi-pedaqoji irs yaratmışdır.

Dissertasiyanın II fəslinin ikinci yarımfəsli "***1991-1999-cu illərdə Azərbaycanda əlavə təhsil sisteminin inkişafını şərtləndirən təhsil islahatları***" adlanır. Bu fəsildə 1991-1993-cü illərdə təhsil sahəsinin də diqqətdən kənarda qalması fonunda durğunluq dövrünün əlavə təhsilə mənfi təsirinə nəzər salınmış, xalqın təkidi ilə Ulu Öndər Heydər Əliyev rəhbərliyə gəlişindən sonra 1993-cü ildən etibarən təhsil sahəsinə dövlət səviyyəsində diqqət artırılması, geniş islahatlar həyata keçirilməsi, həmin islahatların əlavə təhsil ilə bağlı daşıdığı forma, məzmun və mahiyyəti şərh edilmişdir.

Bu dövrdə orta və ali məktəb şəbəkəsi genişləndirilmiş, yüksək səviyyəli kadr hazırlığı ön plana çəkilmişdir. Ümummilli Liderimiz Heydər Əliyev o dövrün real səciyyəsini belə ifadə etmişdir: "*Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycan iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycam müstəqil dövlət kimi idarə edə bilməzdik. XX əsrdə yaranmış təhsil sistemi bizimböyük sərvətimizdir və XXI əsrə biz müstəqilli dövlət olaraq həmin bu sərvətlə, həmin bu böyük potensialla başlamışıq*".[11]

Tədqiqat mövzusunun əhatə etdiyi dövr ərzində milli təhsil quruculuğunun aparılması üçün təhsil qanunvericiliyinin yeniləşdirilməsinə ciddi ehtiyac olmuşdur. İlk növbədə "Təhsil haqqında" yeni qanun qəbul edilməli idi. Çünki, Azərbaycan Respublikasının 1992-ci il 7 oktyabr tarixli 324 nömrəli Təhsil Qanunu dövrün tələblərinə cavab vermirdi. Məsələn, həmin Qanunun "Təhsil proqramları" adlı 10-cu maddəsinin 3-cü bəndində ali təhsildən sonrakı ixtisas təhsili proqramlarının adı çəkilmişdir ki, bu da diplomdan sonrakı təhsil əldə etmək üçün vətəndaşlara məhdud hüquqi baza yaradırdı. Həmin Qanunun 19-cu maddəsinin 5-ci abzası ali məktəblərə elmi-pedaqoji və elmi kadrların attestasiyasını keçirmək, ixtisasartırma və kadrların yenidən ixtisaslaşmasını təmin etmək hüququnu, 25-ci maddə isə

---

[11] Ulu öndər Heydər Əliyev təhsil haqqında // Azərbaycan müəllimi. – 2010, 10 dekabr, – s.4.

Azərbaycan Respublikasının ali məktəblərinə əlavə təhsilin təkcə iki istiqaməti – ixtisasartırma və kadrların yenidən hazırlanması üzrə təhsil xidmətləri göstərə biləcəiyini nəzərdə tuturdu.

Lakin xalqın təkidi və tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də mütərəqqi islahatlar həyata keçirildi. Bununla da, Azərbaycanda əlavə təhsilin müasir standartlar əsasında təşkili üçün hüquqi baza yaranmış oldu. 1991-1999-cu illərdə qəbul edilmiş qanunvericilik aktları arasında həmin hüquqi bazanı yaradan islahat proqramı Cədvəl 2.2-də kursivlə göstərilmişdir.

**Cədvəl 2.2**

| **Ss** | **Qanunvericilik aktının adı** | **Qanunvericilik aktının nömrəsi** | **Qəbul edildiyi tarix** | **Qəbul edən icra hakimiyyəti orqanı** |
|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikasının Təhsil Qanunu | №324 | 07 oktyabr 1992-ci il | Azərbaycan Respublikası Ali Soveti |
| 2. | İxtisasartırma və kadrların yenidən hazırlanması müəssisələrinin nümunəvi əsasnaməsi | №77 | 11 iyul 1997-ci il | Azərbaycan Respublikası Nazirlər Kabineti |
| 3. | Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının təsdiq edilməsi haqqında Sərəncam | №168 | 15 iyun 1999-cu il | Azərbaycan Respublikası Prezidenti |

Bu fəsil üzrə aparılan tədqiqat onu göstərmişdir ki, 1992-ci il Təhsil Qanunu hazırlanarkən mövcud reallıqlar, ölkənin sosial-iqtisadi durumu nəzərə alınmamış, 1999-cu ildə Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramının qəbul edilməsi isə "Təhsil haqqında" yeni qanun qəbul edilməsinə və əlavə təhsil sisteminin inkişafına təkan verən qanunvericilik aktlarının qəbuluna rəvac vermişdir.

Dissertasiyanın II fəslinin üçüncü paraqrafı "***2000-2012-ci illərdə Azərbaycanda əlavə təhsil sisteminin təkmilləşdirilməsində dövlətin təhsil siyasəti***" adlanır. Azərbaycan Respublikası özünün müstəqilliyini qazandıqdan sonra bir çox sahələrdə olduğu kimi, əlavə təhsildə də çoxşaxəli islahatlar aparılmış, bu istiqamətdə də cəmiyyətin yeni sifarişləri, ehtiyacları və tələbatları ödənilmişdir. Təhsil sahəsində İslahat Proqramının qəbulundan sonra əlavə təhsilin yeni əsaslarla müasir mexanizmlərə uyğun olaraq qurulması üçün kifayət qədər tənzimləyici sənədlər imzalanmış, ayrı-ayrı mərhələlərdə həyata keçiriləcək mexanizm və modellər hazırlanmışdır. Ulu Öndər Heydər Əliyevin, islahat çərçivəsindəki fəaliyyət proqramı 2000-ci il 13 iyun tarixli fərmanı ilə daha da dərinləşdirilmiş, əlavə təhsilin müasir tələblər əsasında təşkilinə yol açmışdır.

Məhz bu Fərmana uyğun olaraq Azərbaycanın təhsil sistemində müəllim hazırlığının dünya ölkələrindəki təcrübəyə əsaslanan konseptual strategiyası müəyyənləşdirilmiş, ilkin və diplomdansonrakı müəllim hazırlığı pillələri beynəlxalq modellərə uyğunlaşdırılaraq, onlara bir-birini tamamlayan proseslər kimi baxılmış, fasiləsiz təhsil kontekstində ilk dəfə olaraq həmin pillənin yeni şəbəkəsi yaradılmışdır.

Bu yarımfəsildə qeyd olunanlardan belə qənaətə gəlmək olur ki, müəllim hazırlığı üzrə dünya təcrübəsinə inteqrasiya prinsipi zəruri faktor kimi qəbul edilmiş, həmin istiqamətdə konkret fəaliyyət həyala keçirilmiş, "fasiləsiz təhsil hamı üçündür" konsepsiyası çərçivəsində ilk dəfə olaraq ixtisasartırma, yenidənhazırlanma təhsili, stajkeçmə və təkmilləşdirmə proseslərinin dəqiq çərçivələri müəyyənləşdirilmiş, müasir tələblərə cavab verən dayaq məntəqələri mexanizmi hazırlanaraq əlavə təhsil prosesinin təşkili modeli formalaşdırılmışdır.

2000-2012-ci illər də daxil olmaqla müasir dövrədək pedaqoji kadrların ixtisasartırma təhsili sisteminin müasir tələblər səviyyəsində qurulmasını təmin edən qanunvericilik aktları Cədvəl 2.3-də ümumiləşdirilmişdir.

**Cədvəl 2.3**

| Ss | Qanunvericilik aktının adı | Qanunvericilik aktının nömrəsi | Qəbul edildiyi tarix | Qəbul edən icra hakimiyyəti orqanı |
|---|---|---|---|---|
| 1. | "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman | № 349 | 13 iyun 2000-ci il | Azərbaycan Respublikasının Prezidenti |
| 2. | “Dayaq məntəqələri şəbəkəsinin yaradılması” əmr | № 1094 | 30 noyabr 2000-ci il | Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| 3. | “İxtisasartırma təhsilində yeni mexanizmə keçid və müəllimlərin təkmilləşdirilməsi işinin təşkili” barədə əmr | № 164 | 21 fevral 2002-ci il | Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| 4. | Pedaqoji kadrların ixtisasartırma təhsilində həyata kemçirilən islahatların gedişi əldə olunan nəticələr və perspektiv inkişaf barədə əmr | № 81 | 01 iyul 2003-cü il | Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| 5. | Müəllimlərin ixtisasartırma təhsilinə olan tələbatının qabaqcadan öyrənilməsi mexanizmi barədə əmr | № 245 | 26 mart 2004-cü il | Azərbaycan Respublikası Təhsil Nazirliyi |

**Cədvəl 2.3 ardı**

| | | | | |
|---|---|---|---|---|
| 6. | Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında qərarı | № 102 | 2007-ci il 25 iyun | Azərbaycan Respublikası Nazirlər Kabineti |
| 7. | Azərbaycan Respublikasının Təhsil Qanunu | №833 IIIQ | 19 iyun 2009-cu il | Azərbaycan Respublikasının Milli Məclisi |
| 8. | "Pedaqoji kadrlarin ixtisasartırma təhsili: mövcud vəziyyət, problemlər və təklif edilən yeni model haqqında" qərar | - | 24 oktyabr 2009-cu il | Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyası |
| 9. | İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsinin təsdiq edilməsi barədə əmr | №1668 | 17 dekabr 2010-cu il | Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| 10. | “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası’’ haqqında qərar | №163 | 06 sentyabr 2010-cu il | Azərbaycan Respublikası Nazirlər Kabineti |
| 11. | “İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsi və ixtisasartırma təhsili proqramlarının qiymətləndirilməsinə dair təlimatın təsdiq edilməsi barədə” əmr | № 597 | 18 aprel 2012-ci il | Azərbaycan Respublikası Təhsil Nazirliyi |

**Cədvəl 2.3 ardı**

| | | | | |
|---|---|---|---|---|
| 12. | "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nın təsdiq edilməsi haqqında | № 235 | 14 dekabr 2010-cu il | Azərbaycan Respublikası Nazirlər Kabineti |
| 13. | "İşaxtaran vətəndaşların peşə hazırlığı və əlavə təhsil kurslarının təşkili Qaydaları" təsdiq edilməsi barədə əmr | № 07 | 21 iyun 2012-ci il | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| 14. | Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin kurikulum çərçivəsi ilə bağlı əmr | № 597 | 18 aprel 2012-ci il | Azərbaycan Respublikası Təhsil Nazirliyi |
| 15. | "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" fərman | № 387 | 11 dekabr 2014-cü il | Azərbaycan Respublikasının Prezidenti |
| 16. | 2008-2015-ci illər üçün Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası | № 102 | 25 iyun 2007-ci il | Azərbaycan Respublikası Nazirlər Kabineti |

**Cədvəl 2.3 ardı**

| | | | | |
|---|---|---|---|---|
| 17. | "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin təsdiq edilməsi barədə qərar | № 311 | 18 iyul 2018-ci il | Azərbaycan Respublikası Nazirlər Kabineti |

Dissertasiyanın **"Müasir dövrdə Azərbaycanda əlavə təhsilin inkişaf perspektivləri"** adlı sonuncu fəslinin ilk yarımfəsli "***Azərbaycanda əlavə təhsilin təşkilinin əsas istiqamətləri"*** adlanır. Bu paraqrafda Azərbaycan Respublikasının Təhsil Qanununda (2009) və "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nda (2010) təsbit olunan əlavə təhsilin altı istiqaməti üzrə təşkili məsələlərinə, o cümlədən məzmun və formasına toxunulmuşdur.

Qeyd olunmuşdur ki, Azərbaycanda əlavə təhsilin 6 əsas istiqaməti mövcuddur:

1. İxtisasartırma təhsili;
2. Yenidənhazırlanma təhsili;
3. Stajkeçmə və kadrların təkmilləşdirilməsi təhsili;
4. Təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili;
5. Dərəcələrin yüksəldilməsi təhsili;
6. Yaşlıların təhsili;

Qeyd olunan yarımfəsildə hər bir istiqamət üzrə əlavə təsilin yeni mexanizmləri, həlli gözlənilən bir sıra problemlər, təklifləri yer almış, əlavə təhsilin müvafiq istiqamətlərinin məzmunu, təşkili qaydaları, keçdiyi tarixi inkişaf yolu, müasir dövrdə formalaşma prosesi tədqiq edilir.

III fəsilin ***"Müasir dövrdə Azərbaycanda əlavə təhsilinin təşkili modelləri"*** adlı ikinci yarımfəslində əlavə təhsilin mövcud istiqamətləri üzrə təşkili modelləri göstərilmişdir.

Bu yarımfəsildə həmçinin əlavə təhsilin digər təşkili modellərindən – qısa və uzunmüddətli kurslar, təlimlər, konfranslar, seminarlar, forumlar, dəyirmi masalar, simpoziumlar, konqreslər, dərnəklər,

diskussiyalar, debatlar kimi təcrübə mübadilə tədbirlərindən, həmçinin kouçinq, mentorluq və ustad dərslərindən bəhs olunmuşdur.

Dissertasiyanın sonuncu fəslinin sonuncu pıaraqrafı ***"Azərbaycanda əlavə təhsilin distant təhsil texnologiyaları əsasında təşkili"*** adlanır. Bu yarımfəsildə əlavə təhsilin distant təlim texnologiyaları əsasında təşkili zamanı ortaya çıxan çətinlik, çevik həll imkanları və praktik yanaşmalara yer verilmişdir.

Bu paraqrafdan belə nəticəyə gəlinir ki, distant təhsilin məsafədən təşkili sinxron və asinxron tipdə olmaqla onlayn və oflayn formada reallaşdırılması müəllimin fasilitator rolunu daha çox üzə çıxır və o eyni zamanda həm psixoloji, həm də didaktik aspektdən idarəedici funksiyanı yerinə yetirir. Bu zaman müəllim pedaqoq-moderator vəzifəsini yerinə yetirir; təlim prosesinin bütün təhsilalanlar üçün rahat və asan aparılmasından, tədris materialının mənimsənilməsinədək olan prosesə tam fokuslana bilir.

Tədqiqat ilə bağlı aşağıdakı **nəticələr** əldə olunmuşdur:

1. Tədqiqatın ilkin mərhələsində məlum oldu ki, 2009-cu ilədək Azərbaycanda müəllim və pedaqoji kadrların diplomdansonrakı peşəkar hazırlığı, təkmilləşməsi və təkrar ali təhsili əlavə təhsilə aid edilməmişdir.

2. XIX əsrdən etibarən Azərbaycanda savadsızlığın ləğvi və maarifçiliyin inkişafı ilə şərtlənən pedaqoji kadrların hazırlığında əlavə təhsilin rolu üzə çıxarılmışdır.

3. Əlavə təhsil sosial-pedaqoji fəaliyyət olduğu üçün təhsildə sosial işçilərin diplomdansonrakı professional hazırlığı pedaqoji kadrların əlavə təhsili çərçivəsində, ömürboyu təhsil kontekstində nəzərdən keçirilmişdir.

4. Əlavə təhsil insan şəxsiyyətinin formalaşmasına ömürboyu təsir edən, cəmiyyətdə sosial münasibətləri tənzimləyən, bazar iqtisadiyyatı şəraitində rəqabətədözümlü insan kapitalını formalaşdıran, dayanıqlı sosial inkişaf proqramlarının hazırlanmasında əhəmiyyətli rol oynayan, diplomdansonrakı təhsili fasiləsiz və əlçatan edən, miqrantların və repatriantların sosial-iqtisadi münasibətlərini inkişaf etdirən ən böyük sosial institut, əlavə təhsil xidmətləri göstərən ali təhsil müəssisələri isə təhsilin fasiləsizliyni təmin edən qurumdur.

5. Maarifçiliyin inkişafında, savadsızlığın ləğvində, Azərbaycan xalqının elmi-pedaqoji potensialının formalaşmasında əvəzsiz rol oynamasına və şərəfli tarixi keçmişinə baxmayaraq Azərbaycanda təhsilin tarixi ilə bağlı dərslik və dərs vəsaitlərində, ensiklopediyalarda, tədris proqramlarında və mühazirə mətnlərində əlavə təhsilin tarixinə yer verilməmişdir.

6. Dissertasiyada əlavə təhsilin distant təlim texnologiyaları vasitəsilə həyata keçirilməsinin zəruriliyinə dair yeni məzmun verilmişdir. Distant təlim texnologiyaları vasitəsi ilə əlavə təhsilin təşkili çərçivəsində qısa və uzunmüddətli kurslar, konfranslar, simpoziumlar, seminarlar, forumlar, dərnəklər, treninqlər, təlimlər və ustad dərsləri əlavə təhsilin səmərəli təşkilinin modelləri kimi müəyyən edilmişdir.

7. Elm və texnologiyanın sürətlə inkişaf etdiyi müasir informasiya cəmiyyətində yalnız ali təhsil pilləsinin 4 illik bakalavriat və 2 illik magistratura səviyyələrində əldə olunan təhsilin nəticəsi ilə ömürboyu pedaqoji fəaliyyət göstərmək, xüsuilə ali təhsil müəssisələrində professional elmi-pedaqoji fəaliyyətlə məşğul olmaq qeyri-mümkündür.

8. Azərbaycan Respublikasında elmi, elmi-pedaqoji və sosial-pedaqoji kadrların attestasiyasının həyata keçirilməsində və sertifikatlaşmasında, o cümlədən rəhbər pedaqoji kadrların hazırlanmasında və idarəetmənin keyfiyyətinin yüksəldilməsində əlavə təhsil başlıca şərtdir.

9. Tədqiqat göstərdi ki, işğaldan azad olunmuş torpaqlarımızda formalaşan əmək bazarında vətəndaşların peşəkar fəaliyyət göstərə bilmələri üçün müvafiq məşğulluq proqramlarının yaradılması, eləcə də məzunların xalq təsərrüfatının müxtəlif sahələrində əmək fəaliyyətinə başlaması, sosial münasibətlərə çevik və sürətli adaptasiyası əlavə təhsil ilə sıx bağlılıq təşkil edir. Bu baxımdan tədqiqatda əlavə təhsilin əhəmiyyəti üzə çıxarılmışdır.

12. Müəllimlərin mübadilə proqramları vasitəsilə akademik mobilliyinin yüksəldilməsində, sosial-pedaqoji kadrların (təhsildə sosial işçilərin, sosial pedaqoqların, tərbiyəçilərin və müəllimlərin) peşə kompetensiyalarının artırılması istiqamətində əlavə təhsil mühüm əhəmiyyət kəsb edir.

Tədqiqat üzrə aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

1. Azərbaycan təhsil tarixində əlavə təhsilin özünəməxsus yeri vardır və əlavə təhsil şərəfli tarixi inkişaf yolu keçmişdir. Azərbaycanda əlavə təhsil sahəsində çoxillik peşəkar ənənələrin mövcudluğunu nəzərə alıb bu qənaətə gəlirik ki, müasir dövrdə əlavə təhsilin vətəndaşların karyera inkişafında və professional kompetensiyalarının formalaşmasında əhəmiyyəti, əlavə təhsilin müasir modellərə uyğun, o cümlədən distant təhsil texnologiyaları vasitəsilə təşkili cəmiyyətin sosial sifarişinə uyğunlaşdırılmalıdır. Buna görə də, iqtisadi səmərəliliyini, kütləviliyini, əlçatanlığını nəzərə alaraq, əlavə təhsil xidmətlərini həyata keçirmək üçün müvafiq beynəlxalq tələblərə cavab verən dövlət standartına və əlavə təhsilin məzmununu özündə əks etdirən sənədlərə, çevik qiymətləndirmə modellərinə, keyfiyyət təminatına, peşəkar pedaqoji heyətə, əlverişli maddi-texniki bazasına malik, akkreditə olmuş beynəlxalq və lisenziya almış yerli akademiyaların, ali məktəblərin, institutların və yaxud onların hər hansı bir ixtisaslaşmış struktur vahidinin (filial, şöbə, bölmə, mərkəz və s.) publik-hüquqi şəxs statusunda fəaliyyət göstərməsi və əlavə təhsil müəssisəsi şəbəkələrinin genişləndirilməsi məqsədəuyğun olardı.

2. Azərbaycan təhsil və pedaqogika tarixində əlavə təhsilin inkaredilməz yeri olduğunu və onun pedaqogika elmində, müasir təhsil standartlarında, pedaqoji texnologiyalarda mövcud perspektivlərinin olmasını nəzərə alaraq mövzu və kontekstə uyğun olaraq "Pedaqogika tarixi", "Məktəb pedaqogikası", "Ali məktəb pedaqogikası" dərsliklərinə və dərs vəsaitlərinə, ensiklopediyalara, tədris proqramlarına daxil edilməsi vacibdir.

3. Müəllimlərin təhsili və fəaliyyəti sosial-pedaqoji sistemin tərkib hissəsi olduğu üçün təhsildə sosial işçilərin və sosial pedaqoqların əlavə təhsilini də pedaqoji kadr hazırlığına aid etməyi və qısa və uzunmüddətli kursların, konfransların, simpoziumların, seminarların, forumların, dərnəklərin, treninqlərin, təlimlərin və ustad dərslərinin əlavə təhsilin əsas təşkili modelləri kimi nəzərdən keçirilməsi məqsədəuyğun olardı.

4. İşğaldan azad olunmuş torpaqlarımızda infrastrukturun, ağıllı şəhər (kənd) konsepsiyasının yaradılması, "Böyük qayıdış"

prosesi çərçivəsində yeni iş yerlərinin açılması fonunda formalaşan doğma yurdlarında məskunlaşan vətəndaşlarımızın əmək bazarında payını, onların məşğulluq proqramlarında xüsusi çəkisini artırmaq məqsədilə əlavə təhsilin imkanlarından istifadə etmək zəruridir.

5. Sosial-pedaqoji kadrların və rəhbər pedaqoji işçilərin öz peşə fəaliyyəti dövründə (və ya müəyyən müddət pedaqoji fəaliyyətdə olmayan dövrdə) mütəmadi olaraq peşəkarlıq səviyyəsini, peşə ustalığını, elmi-nəzəri biliklərini artırmaq məqsədi ilə şəxsi ehtiyac və tələbatlarına uyğun gələn, o cümlədən yenilikləri və dəyişiklikləri əks etdirən tədris plan və proqramları üzrə təhsilini, attestasiyasını, sertifikatlaşdırılmasını müvafiq əlavə təhsil müəssisələrinə həvalə edilməsi əlavə təhsilin təşkilinin daha çevik mexanizmlər əsasında təkmilləşdirilməsinə zəmin yaradardı.

Dissertasiyanın əsas elmi və təcrübi nəticələri aşağıdakı **elmi məqalə və konfrans materiallarında** öz əksini tapmışdır:


1. Azərbaycanda fasiləsiz təhsil sistemində əlavə təhsilin formalaşması prosesi və onun modernləşdirilməsinin zəruriliyi // Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransının materialları (II cild) / – Bakı. – 19-20 dekbr, – 2013. – s. 385-388.
2. Azərbaycanda əlavə təhsilin inkişaf perspektivləri və onun modernləşdirilməsinin təşkili // Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi Xəbərləri (1-ci hissə), – Bakı, – 2014. – s.165-173.
3. Multikulturalizmin və dini tolerantlığın qorunmasında əlavə təhsilin əhəmiyyəti // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi) // – Bakı: Mütərcim, – 2014. №3, – s.182-188.
4. Azərbaycanda əlavə təhsilin şəxsiyyətin harmonik inkişafı üçün əhəmiyyəti // "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı" mövzusunda Beynəlxalq elmi-konfransın materialları (Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu // – Bakı, – 5-6 dekabr, – 2014. – s.324-326.
5. Məmmədov, N.R. Əlavə təhsil sistemində islahatlar və onun müasir təhsildə tətbiqi // Tədris prosesinin təkmilləşdirilməsi

və müasir təhsil konsepsiyası” mövzusunda Beynəlxalq elmi-konfransın materialları (Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu), – Naxçıvan, – 16-17 dekabr, – 2014. – s. 67-68.

6. Azərbaycan vətəndaşlığı almış repatriantların və miqrantların adaptasiyasında əlavə təhsilin əhəmiyyəti // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi) №1, – Bakı: Mütərcim, – 2015. – s.191-193.
7. Multikulturalizmin və dini tolerantlığın cəmiyyətdə möhkəmlənməsində əlavə təhsilin rolu // “Ulu Öndər heydər Əliyevin irsində multikultural və tolerant dəyərlər” adlı Beynəlxalq Elmi Konfransın Materialları. II hissə. – Bakı, – 3-5 may, –2016. – s.180-183.
8. Uğurlu təhsil və sosial siyasət: Əlavə təhsil işsizlik və məşğulluq probleminin həllində vasitə kimi // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri. VIII Beynəlxalq Elmi Konfrans. – Bakı, – 2017, – s.345-348.
9. Дополнительное образования – стратегия жизни современного человека в образовании через всю жизнь // “Azərbaycanda rus dili və ədəbiyyatının öyrənilməsi və tədrisinin aktual problemləri: orta və ali məktəblər üçün dərslik komplekslərinin hazırlanması təcrübəsi, problemləri və perspektivləri” adlı Beynəlxalq Elmi Konfransın materialları. – Баку, – 19-20 may, – 2017. – с. 202-203.
10. Əlavə təhsilin təşəkkülü və onun tədqiqat tarixinin bəzi məsələləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi).– Bakı: Mütərcim, – 2019. №3, – s. 213-218.
11. Роль современных учебных технологий в подготовке к педагогической деятельности преподавателей по предмету и магистров // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri. X Beynəlxalq Elmi

Konfrans. – Bakı: Slavyan Universiteti, – 07 may, – 2019. – c. 302-305.
12. Əlavə təhsildə müasir problemlər və yeni yanaşmalar // Azərbaycanşünaslığın aktual problemləri (Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş XI Beynəlxalq Elmi Konfransın materialları). – Bakı: Bakı Slavyan Universiteti, – 7-8 may, – 2020. – s.223-226.
13. İnkişaf etmiş ölkələrdə sosial peşə sahələri əlavə təhsilin tərkib hissəsi kimi // "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində" adlı Beynəlxalq elmi-praktik onlayn konfransın materialları. Bakı Slavyan Universiteti, – Bakı: Mütərcim, – 24 dekabr, – 2020. – s.349-356.
14. Covid-19 pandemiyası şəraitində Bakı Slavyan Universitetində məsafədən tədrisin təşkili təcrübəsi // “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri” adlı XII Beynəlxalq Elmi Konfrans. Bakı Slavyan Universiteti, – Bakı, – 30 aprel, – 2021. – s.405-409.
15. Əlavə təhsil sistemində pedaqoji innovasiyaların tətbiqinin keyfiyyətə təsiri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). – Bakı: Mütərcim, – 2021. №3, – s.212-217.
16. Distant təlim texnologiyaları vasitəsilə əlavə təhsilin təşkilinin xüsusiyyətləri // Tərcümə çoxdilliliyin və mədəni mübadilənin əsası kimi Bakı Slavyan Universitetinin 75 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. – Bakı, – 24 dekabr, – 2021. – s.200-205.
17. Sovet dövründə Azərbaycanda müəllimlərin və maarif işçilərinin əlavə təhsil problemləri // Humanitar elmlərin öyrənilməsinin actual problemləri (Ali məktəblərarası elmi məqalələr məcmuəsi). – Bakı: Mütərcim, – 2021. №4, – s.220-224.
18. Исторические этапы становления направлений дополнительного образования в Азербайджане (1920–1991 гг.) // Вісник Черкаського національного університету імені Богдана Хмельницького. Серія «Педагогічні науки», – Черкаси, – 2021. № 4, – с.77-82.

19. 1920-1990-cı illərdə Azərbaycanda əlavə təhsil proqramları vasitəsilə müəllim və pedaqoji kadr hazırlığı // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. 1(118), Bakı Dövlət Universiteti, – Bakı, – 2022. – s.276-280.
20. Ömürboyu təhsil kontekstində əlavə təhsil sosial institutun mühüm tərkib hissəsi kimi // "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri" adlı XIII Beynəlxalq Elmi Konfrans. Bakı Slavyan Universiteti, – Bakı, – 2022, – 4-5 may, – s. 471-476.
21. Azərbaycanda müəllim hazırlığının inkişafında əlavə təhsilin rolu // "Qloballaşma şəraitində müəllim şəxsiyyətinin formalaşdırılmasında pedaqogika və psixologiya elmlərinin yeri və rolu" mövzusunda Respublika Elmi Konfransının materialları, Sumqayıt Dövlət Universiteti, – Sumqayıt, – 28-29 aprel, – 2022. – s.85-87.
22. Azərbaycanda əlavə təhsilin təşkilinin əsas istiqamətləri və təşkili modellərinə dair // "Elmi tədqiqat" Beynəlxalq online elmi jurnal. – Cild: 2, Sayı: 7, – Bakı, – 2022. – s.10-17.
23. Azərbaycan Respublikasında və Rusiya Federasiyasında əlavə təhsilin müqayisəli təhlili // Azərbaycan məktəbi. – Bakı, – 2022. № 3(700), – s. 69-77.
24. Технологии дистанционного обучения как современный модель организации обучения в дополнительном образовании // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" adlı V Beynəlxalq elmi konfransın materialları. – Бakı: Azərbaycan Dillər Universiteti, – 28 aprel, – 2022. – с.294-296.
25. Mammadov, N.R. About the History of the development of Additional Education in Azerbaijan // "Current issues in modern science" (History Series, Pedagogy Series, Law Series, Economics Series, Public Administration Series, Technical Series). – Kyiv, – 2022, Issue No 2(2), – s.498-509.
26. Mammadov, N.R. Models of additional education based on distance learningtechnologies // The XXV International

Scientific and Practical Conference "Innovative trends of science and practice, tasks and ways to solve them", – Greece, Athens, – 2022, June 28, – s. 301–306.

27. "Additional education in the process of career development as an Integral part of employment programs" // Education via Distance Learning and other Pedagogical Challenges: Proceedings of the 2nd International Scientific and Practical Internet Conference, – Dnipro, Ukraine, – 2023, September 21-22, – 27-29 pp.
28. "Дополнительное образование в процессе развития карьеры как составная часть программ занятности" // Научное наследие академика Л.В.Канторовича и его воплощение в современной экономике и технике. Материалы VIII международной научно-практической конференции. – Санкт-Петербург, – 2024, – с.244-248,
29. "Əlavə təhsilin təşkili modellərinin təsnifatı" // Azərbaycanşünaslığın aktual məsələləri (tədqiqat, elmi diskurs, beynəlmiləlləşmə). Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş XV beynəlxalq elmi konfransın materialları. – Bakı, Quba, – 2024, – 02-03 may, – s.160-164.

Dissertasiyanın müdafiəsi 27 sentyabr 2024-cü il tarixdə saat 14:00 Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 iyun 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 27.06.2024

Kağızın formatı: A5

Həcm: 37654 işarə

Tiraj: 100